# Mirkazım SEYİDOV - 60



Hörmətli Mirkazım müəllim!

Sizi -tanınmış yazıçı-publisisti 60 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz ötən ilin 90-cı illərində ədəbi fəaliyyətə başlamısınız. "Bir medalın iki üzü", "Sənə nəğmə qoşuram", "Dağlı və günəşli ölkəm", "Haqqın sədası ana", "Dahi", "İlhamla sabaha doğru", "Mərdini unutmaz Vətən", "Yaşayır Heydər ata", "Elin Mehriban qızı", "İnamdan doğulan İlham", "Həqiqətin gözəlliyi", "Prezident", "Atatürk", "Bakı-Ceyhan-üç dəniz əfsanəsi", "Zamanı qabaqlayan dahi", "Zamanın nəbzi", "Qaranlığa nur saçan zəka", "Əbədiyaşar ömrün manifesti", "Həqiqətin düz ünvanı", "Dan yerinin çinarı", "Aydınlığın gül nişanı", "Əbədiyyət məbədi", "Ömrümü xalqıma bağışlayıram", "Erməni vandalizmi", "Heydər dühası", "Birinci xanım", "Azərbaycan" kimi kitabların müəllifisiniz. 2004-cü ildə diaspor fəalı olaraq Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi məqsədilə Novosibirskdə Beynəlxalq Xeyriyyə Fondu açmısınız. O vaxtlar olduqca çətin olsa da, həmin diaspor qurumunu rəsmən qeydiyyatdan keçirməyə nail olmusunuz. Azərbaycanın mənafeyi naminə yadda qalan bir çox tədbirlər keçirən bu Fond "Odlar yurdu" adlı ictimai-siyasi qəzet də təsis edib. Siz indiyədək bu mətbu orqanının baş redaktorusunuz. Azərbaycan həqiqətlərini nəinki Rusiyanın böyük regionlarından biri olan Novosibirsk vilayətində, hətta Federasiyanın ayrı-ayrı bölgələrində yayılmasında "Odlar yurdu" qəzetinin böyük rolu olub. 2006-cı ildən qəzetin formatı dəyişilərək, nəfis tərtibatlı jurnal kimi nəşr olunur. Beynəlxalq Xeyriyyə Fondunu yenidən qeydiyyatdan keçirərək "Heydər Əliyev adına Beynəlxalq Azərbaycan Forumu" adlandırmısınız. Siz Fondun prezidenti kimi 2010-cu ilə qədər fəaliyyət göstərmisiniz. 2010-cu ildə Azərbaycana qayıtdıqdan sonra Bakıda fəaliyyət göstərən "Heydər Əliyev adına Beynəlxalq Azərbaycan Forumu"nun daimi nünayəndəliyinin rəhbəri seçilmisiniz. Azərbaycanda yaşamağınıza baxmayaraq bu günə kimi diaspor fəaliyyətinizi ləyaqətlə davam etdirirsiniz. 2014-cü ildə Novosibirsk şəhərində Türkdilli xalqlarla slavyan xalqları arasında Əməkdaşlıq Fondunu təsis etmisiniz və eyni vaxtda bu qurumun Azərbaycanda daimi nümayəndəliyini yaratmısınız.

Aktiv ictimai-siyasi fəaliyyətinizə, eləcə də diaspor quruculuğu, dövlətlər arasında əlaqələrin gücləndirilməsi, ədəbiyyatımızın və mədəni irsimizin xarici ölkələrdə təbliği istiqamətində xidmətlərinizə görə "Tərəqqi" medalı, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmisiniz. Rusiya Federasiya Şurasının nüfuzlu Fəxri fərmanı ilə bərabər, "Gümüş Nişan" Dövlət Mükafatına layiq görülmüsünüz. 44 günlük Vətən müharibəsindəki qələbəmizlə bağlı Azərbaycanda ilk kitab çıxaranlardansınız. "Tarixi qələbəyə böyük qayıdış" adlı bu əsəri böyük tirajla çap etdirmisiniz.

Hörmətli Mirkazım müəllim!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı və yaradıcılığınızda uğurlar arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**